ƏDALƏT QURANDA

ƏDALƏT QURANDA

ƏLƏDDİN MƏLİKOV

Zülmün mənası “Tacül-ərus” deyir: “Zülm” digərinin mülkündə təsərrüf edib, həddən keçməyə deyilir. “Lisanül-ərəb” kitabında belə deyilir: “Zülm” hər hansı bir şeyi ẓ yerinə qoymamaqdır. Rağib “Müfrədat” kitabında zülmün mənasını “Lisanül-ərəb” kimi qəbul etmişdir.

“Ədlin” və ya ədalətin mənası Əmirəl-mṃinin, “ədalət” və “bəxşişdən” hansı biri fəzilətlidir sualının cavabında buyurur: (ərəbcə)[1] “Ədalət hər bir şeyi ẓ yerində saxlayır.” “Tacül-ərus” və “Lisanül-ərəb” də qeyd olunduğu kimi, “ədalət” cṿrün ziddidir. Ədalət, orta səviyyədə hərəkət etmək, ifrat və təfritə varmamaq və düzgünlüyə hḳm etmək deməkdir. “Ədil” nəfsinin hḳmü ilə haqdan uzaqlaşıb, cṿrə hḳm etməyən şəxsə deyilir. “Rağib” deyir: “Ədalət hər bir şeyi bərabər bḷməkdir.” Rəvayət edilmişdir ki: (ərəbcə)[2] “Asimanlar və yer, ədalət və bərabərliklə bərpadır. Onların tərkibində lazım olan şeylər çatışmasaydı və ya həddən çox olsaydı, quruluşu bir-birinə dəyərdi.” Qeyd etdiyimiz cümlədən aydın olur ki, ədalət və bərabər şəkildə bḷmək hər bir şeyin bir-birinə oxşarlığı demək deyildir. Ədalətdən məqsəd, hər bir şeyin ẓ miqdarı və qədərində olmasıdır. Gy və yer, kəhkəşanlar, dağ, dəniz və sular, insan, heyvan, bütün canlı və cansızlar mṿcud olub, yaşamaqları üçün lazımlı şəraitə mḥtacdırlar.

“Qistin” mənası Rağib “Müfrədat” kitabında yazır: “Qist, ədalətlə qismət olan şeyə deyilir.” “Lisanül-ərəb” və “Tacül-ərus” kitablarında qeyd edilmişdir ki, qist, ədalət, hissə və qismətdir. İqsat, hər hansı bir şeyi ədalətlə bḷməyə deyilir. Hədisdə belə deyilir: (ərəbcə) “Hökm etdikdə ədalətli olarlar. Hər hansı bir şeyi bḷdükdə isə ədalət və qistlə bḷərlər.” Əbu Hilal Əsgəri “Əl-füruq” kitabında deyir: Qismət və qist bir-birindən fərqlidir. Lazımı miqdarından çox olduqda “qismət” adlanır. Qist isə ədalətlə və lazımı qədərində təyin olunmağa deyilir. bəziləri belə demişdirlər: “Hər hansı bir şey qist və ədalətlə bḷündükdə deyirlər: onu ẓ aralarında “təqsim” etdilər (qistlə bḷdülər). Belə demək olar ki, “qist” bḷmə məsələlərində ədalətin adıdır. Qeyd edilmişdir ki, “qist” hər hansı bir insanın lazım və mḥtac olduğu qismətə deyilir.

“Qist” kəlməsi Quranda Müqəddəs Quranda “qist” kəlməsi çox işlənmişdir: (ərəbcə) “Hədid” surəsinin 25-ci ayəsinin məzmunu belədir: Peyğəmbərləri nişanələrlə gṇdərmək, Quranı və mizanı nazil etmək insanları qistə və ədalətə yṇəltmək üçündür. Ayənin zahirindən belə başa düşülür ki, qist ədalət mənasında işlədilmişdir. Amma ədalətin əvəzinə “qist”-dən istifadə

etmək buna gṛə ola bilər ki, oxucu və eşidən ədalətlə qismət olan hər bir şeyə diqqət etsin və onun insan cəmiyyətinin bərpasında əhəmiyyətinə varsın. Bu həqiqəti də nəzərdə almaq lazımdır ki, Peyğəmbərlərin zamanı iqtisadiyyatın ədalətin bərpasında heç bir qüvvəyə malik olmadığı bir zaman idi. Peyğəmbərin kəlməsi və Quranın nazil olmasında iqtisadi nizamın tənzimlənməsi də nəzərdə tutulmuşdur. Mütləq ədalət, iqtisadi nizam tənzimlənmədən mḥkəmlənə bilməz. Nəticədə düzgün istehsal və idxal üsulları baş tuta bilməyəcəkdir. Allah-təala digər bir ayədə buyurur: (ərəbcə)[3] “De mənim Pərvərdigarım məni qistə əmr etmişdir.” Bu ayədə qeyd olunan “qist”-dən məqsəd ya mütləq ədalətdir və ya ədalət əsasında bḷmək mənasını daşıyır. (ərəbcə)[4] Bu ayədə Allahın qist əsasında əməl etməsindən məqsəd budur ki, hər bir şeyi hikmətlə və lazımı qədərində yaratmışdır.

Digər ayələrdə buyurur: (ərəbcə)[5] “Qorxursunuz ki, məbada yetimlər barəsində ədalət və qistə riayət etməyəsiniz...” (ərəbcə)[6] “Hər bir şeyi ədalət və insaf ḷçüsü ilə ḷçün.” Güman edilir ki, qeyd etdiyimiz ayələrdə “ədalət”, maddi və iqtisadi məsələlər haqqında işlədilmişdir. Allah-təala müxtəlif ayələrdə buyurur: (ərəbcə)[7] “Allahın yolunda mḥkəm olun. Ədalət və düzgünlüyə şahid dayanın.” (ərəbcə)[8] “Bunlar Allahın yanında daha düzgün və daha mḥkəmdir.” (ərəbcə)[9] “Onların arasında hḳm etdikdə, ədalətlə hḳm et.” Ayələrin zahirindən “hḳmdə ədalətli olmaq” başa düşülür. “Qist” kəlməsi Nəhcul-bəlağədə

Nəhcul-bəlağədə, “qist” kəlməsi ədalətlə və lazımı qədərində bḷmək mənasında işlədilmişdir. 163-cü xütbədə Tovuz quşunun yaranması haqqında buyurur: “Rənglərdən qist və lazımı qədərində bəhrələnmişdir.” 183-cü xütbədə Allah-təalanın vəsfində buyurur: “Allah qistlə ẓ xəlq etdikləri arasında dayanmışdır. (hər bir şeyi ədalətlə və lazımı qədərində qismət etdi. Yaranışla müvafiq və uyğun yaratdı.) Onlar üçün hḳm etdikdə, ədalətlə hḳm etdi. Ədalətin müxtəlif cəhətləri Bir çox insanlar ədalətin tərifində və adil şəxs dedikdə onun həqiqətinə varmırlar. Hər hansı bir dṿlətin rəhbərini və ya məsul işçini şəxsi mənafedən uzaqdırsa və mṿcud qanunu hamı üçün bərabər şəkildə icra edirsə, (qanunun qəbul edilməsində insanların rolunun olub-olmamasının heç bir rolu yoxdur.) Adil hesab edirlər. Məsələn, “Ənuşirəvan, və onun dṿlətini adil hesab edirlər. halbuki Ənuşirəvanın dṿləti zülm əsasında və çirkin bir dṿlət idi. O, dṿləti ẓ haqqı hesab edirdi və ona atası Qubaddan irs apardığı digər şeylər kimi baxırdı. Bu səbəbdən digərlərini hḳumətə sahib olmaqdan məhrum edirdi. Belə ki, bir hakim və hḳumət ədalətsiz şəkildə dṿləti qoruyurdu.[10] Ənuşirəvanın Rum ilə müharibədə pula ehtiyac duyurdu. Onun xəzinəsində lazımi qədər pul mṿcud deyildi. Palançı şəxs bir şərt ilə ehtiyac duyulan pulun ḍənməsini ḥdəsinə gṭürdü. Şərt bundan ibarət idi ki, dṿlətdə mṿcud olan fərqlənmələrə və nəticədə ṿladlının təhsildən məhrum olmasına son qoyulsun. Firdovsinin “Şahnamə”də qeyd etdiyi bu dastan, dṿlətdə mṿcud olan fəsada sübutdur. Şah, palançı şəxsin sẓünü eşitdikdə

qəbul etmədi, şübhəsiz, ümumi camaat belə bir hakimi adil hesab edirlərsə, ziyalı və elmə yiyələnən insanlar belə bir dʏləti və onun başçısını zalım bilirlər. həqiqətən elmi məxsus bir təbəqəyə, inhisarlaşdırmaq, şahzadələrə və ordu başçılarının ʏladlarına məxsus etmək, byük bir zülmdür. “Con Smit” (Afrika milliyyətçilərinin rəhbəri) “Rudziya”-hķumət qanunlarının icraçısı, zalım hesab edilir. Belə bir dʏlətin tərəfdarları da zülmkar hesab edilməlidirlər. Eləcə də ünki insan azadlığı, fəziləti vəl .Kommunizm və Kapitalizm qurumları zülmə əsaslanırlar həqiqətindən uzaqdadırlar. Həmçinin güclə dʏləti ələ keçirən hakim dʏlət işlərində ədaləti qorumaq istəsə belə, zalım hesab edilir. Beləliklə, gʐdən pərdə asan bu cür ədalətləri ədalət hesab etmək olmaz. Hərçənd ədalətdən bəhrələndiyinə gʀə mütləq zülmün qarşısında ədalətli gʐə çarpır. Mütləq ədalət heç bir cəhətdən zülmlə qarışığı yoxdur. Hər baxışda ədalət gʐə dəyir. Qeyd edəcəyimiz ədalətin bütün xüsusiyyətlərinə malikdir.

Hakimin ədaləti: Hakimin ədaləti bundan ibarətdir ki, onun dʏləti hamı tərəfindən qəbul edilsin, güc strukturlarına sykənməsin, şəxsi manafeə əsaslanmasın, müəyyən şəxs və təbəqəni digərlərindən üstün tutmasın. Hakim yalnız düzgünlüyü, ʐ dʏlətinin başlığı hesab etməlidir. Ləyaqətincə dʏlətçilik edə bilmədikdə kənarlaşmalıdır. Qanunları bərabər şəkildə icra etməli və zülmə yol verməməlidir. Bu ədalətə siyasi nqteyi nəzərdən bir baxışdır.

_____ [1] “Səfinətül-bihar”, 2-ci cild, səh. 166. [2] Yenə orada. [3] “Əraf” surəsi, 29-cu ayə. [4] “Ali-İmran” surəsi, 18-ci ayə. [5] “Nisa surəsi”, 3-cü ayə. [6] “Ər-Rəhman” surəsi, 9-cu ayə. [7] “Maidə” surəsi, 8-ci ayə. [8] “Bəqərə” surəsi, 282-ci ayə. [9] “Maidə” surəsi, 42-ci ayə. [10] Qeyd etmək lazımdır ki, adil hakimin zamanında dünyaya gʐ açdım. Hədisinin Peyğəmbərə nisbət verilməsi isbat edilməmişdir. Hədis alimləri bu hədisi .saxta hədislərdən hesab edirlər. Müxtəlif şahid və qərinələr də hədisin zəifliyini təsdiq edir